# Azərbaycan tarixinin tədrisində kompetensiyaların formalaşdırılmasının didaktik, psixoloji və fəlsəfi əsasları

**Aygün İlyar qızı İsmayılova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** teacher.memmedzadeh1026@gmail.com

**Rəyçilər:** t.ü.e.d., dos. S.M. Seyidova,
p.ü.e.d., prof. M.M. Əmirov

**Açar sözlər:** Azərbaycan tarixi, kompetensiya, didaktika, metodika, psixologiya, fəlsəfi əsaslar

**Ключевые слова:** история Азербайджана, компетенция, дидактика, методология, психология, философские основы

**Key words:** history of Azerbaijan, competencia, didactics, methodology, psychology, philosophical bases

"Şagirdlərə öyrənməyi öyrətmək" məsələsi ən qədim zamanlardan elm adamlarını və pedaqoqları düşündürən mövzulardan olmuşdur. Şüurlu dərketmə problemi bu gün də olduqca aktualdır. Şüurlu mənimsəməyə əsaslanan şagird fəaliyyəti bir çox elmlərin əsasını təşkil edir. Bu problemin didaktik, fəlsəfi və psixoloji əsasları M. Əmirov, D. Musayev, İ. İsmayılov, E. Əliyev, L. Bayramova, O. Məmmədov Z. Veysova, Ə. Əlizadənin əsərlərində işıqlandırılmışdır.

Şagird şəxsiyyətinin formalaşmasında təhsil kompetensiyaları mühüm rola malikdir. Kompetensiyalı təlim şagirdlərə tədris materialını şüurlu mənimsəmək, öz imkanlarını dəyərləndirmək və fəaliyyətini təşkil etmək imkanı verir. Kompetensiyalı şagirdin formalaşması bilavasitə müəllimin kompetentliyindən asılıdır. Müasir müəllimin kompetentliyinə qoyulan tələblər arasında onun savadlılığı, ünsiyyətcilliyi, yaradıcı təfəkkürü və nəticəyə əsaslanan fəaliyyəti qeyd olunur. Müəllim şagirdlərə yalnız nəzəri biliklər verməməli, onları fəaliyyətə təhrik etməlidir (1, s. 165-169). Pedaqoji fəaliyyətin uğurlu həyata keçirilməsi üçün kompetensiyaların kompleks təşkili vacib məsələlərdəndir. Bu proses müəllimlərin demokratik üslubuna, təhsilalan və təhsilverənlərin qarşılıqlı fəaliyyətinə, əməkdaşlığına əsaslanır (2, s. 317-318 ).

Ümumtəhsil məktəblərində formalaşdırılan kompetensiya modeli təhsilalan və təhsilverənlərin fəaliyyətinin daha məhsuldar olmasına şərait yaradır. Müəllim şagirdləri fəaliyyətə sövq etməklə onları əmək təcrübəsinə alışdırır (3, s. 4-5).

Kompetensiyanın əhəmiyyəti zaman keçdikcə daha da artır, yeni növləri meydana gəlir. Bu baxımdan sosial və siyasi kompetensiyalar, İKT sahəsində əldə edilən kompetensiyalar, müstəqil öyrənmə kompetensiyaları, sahibkarlıq hissi, ana dilində ünsiyyət, xarici dildə ünsiyyət və s. kimi yeni növləri qeyd edə bilərik (4, s. 8).

Tədris materialını dərk etməyin ən mühüm stimullarından biri təhsilalanlarda idrak marağının yaradılmasıdır. Onun təsiri ilə şagird tədris materialını öyrənməyə daha həvəsli olur, məqsədli olur. Şagirdin intellektual fəallığı artır, yaddaşı inkişaf edir, təfəkkür fəaliyyəti daha da sürətlənir. İdrak marağı şagirdi təlimə həvəsləndirən başlıca vasitədir. Şagirdin maraqlandığı obyektdə yeni cəhətlər aşkar etməsi, mahiyyətini aydınlaşdırması, səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi və s. proseslər idraki əməliyyatlarla bağlıdır (5, s. 10).

Təlim prosesində şagird təfəkkürünün müntəzəm inkişafı, biliklərin müstəqil əldə edilməsinə şəraitin yaradılması, mühüm bacarıq və vərdişlərin aşılanması, onların idraki fəallığa cəlb

olunması interaktiv təlimin əsas xüsusiyyətləridir. Problem vəziyyətin yaradılması şagirdi ənənəvi olaraq bilikləri qəbul edən obyektdən çıxararaq fəal təlimin iştirakçısına çevirir. Şagird problem qarşısında öz fərziyyələrini irəli sürür. Problemli vəziyyətin yaradılması şagirdin tədqiqatçıya çevrilməsinə səbəb olur. Burada məqsəd öyrənənlərin hafizəsini yalnız elmi informasiyalar ilə zənginləşdirmək deyil, onların təfəkkürünü müntəzəm olaraq inkişaf etdirməkdir. Tədqiqatçı mövqeyi şagirdə daxili potensialını, mənəvi keyfiyyətlərini və qabiliyyətlərini dərk etmək imkanı verir. Bu onlarda bacarıq və vərdişlərin formalaşmasına imkan verir (6, s. 12-17).

Təhsilalanlarda bilik, bacarıq və vərdişlərin formalaşdırılmasında əyani təlim metodunun da böyük rolu var. Xüsusilə tarix fənninin tədrisində şagirdlərdə tarixi biliklərin şüurlu mənimsənilməsi, dərk olunması prosesində əyani təlim metodlarının əhəmiyyətini qeyd etməliyik. Memarlıq abidələri, tarixi məkanlar, tədris şəkilləri, sənədli fotoşəkillər, sənədli filmlər, həmçinin sxemlər, qrafiklər, xəritələr şagirdlərin tədris materialını problem baxımından düzgün dərk etməsinə səbəb olur. Əyani vasitələr hadisələrin şagirdlərin şüurunda canlanmasına, qanunauyğunluq və mahiyyətini başa düşməyə imkan yaradır. Əyani təlim metodları tədris materialının şüurlu mənimsənilməsinə, şagirdlərin praktik fəaliyyətə cəlb olunmasına şərait yaradır (7, s. 269-270).

Hər bir şagirdin fərdi xüsusiyyətlərinin nəzərə alınması, qorunması, inkişaf etdirilməsi müasir məktəbin əsas vəzifəsidir. Sinifdəki şagirdlərin hər biri mənimsəmə, inkişaf, hazırlıq səviyyəsinə görə bir-birindən kəskin fərqlənir. Təlim prosesində fərdi yanaşma prinsipi iki yolla - təlimin fərdiləşməsi və diferensiyasiyası vasitəsilə həyata keçirilir. Təlimin diferensiyasiyası şagirdlərin maraqları, xüsusi qabiliyyətləri, peşə niyyətlərinə əsasən müxtəlif məktəb və siniflərin yaradılması, müxtəlif tədris plan və proqramların yaradılması ilə həyata keçirilir. Fəal təlimdə öyrənənlərin yaş, fərdi xüsusiyyətlərinin nəzərə alınması bütün şagirdlərə bərabər təlim imkanı verir. Bu da şagirdin bir şəxsiyyət kimi inkişafında mühüm amildir. İş formaları fərdi, cütlərlə, frontal, qrup olmaqla ayrılır. Xüsusilə qrup işləri zamanı şagirdlərin idrak fəallığı artır. Onlarda sosial keyfiyyətlər, əməkdaşlıq vərdişləri, ünsiyyət qabiliyyətləri, öz fəaliyyətlərinə nəzarət, intellektual bacarıqlar formalaşır (8, s. 299).

Kompetensiya probleminə xüsusi yanaşması olan müəlliflərdən biri də H.Qardnerdir. O, qeyd edir ki, ilk növbədə, təhsilalanların öyrənmə özəlliklərini müəyyən etmək, sonra isə buna uyğun fəaliyyəti seçərək biliyin ötürülməsi prosesini həyata keçirmək vacibdir. Şagirdlərin öz intellekti haqqında məlumatlı olması özünü tanımağa imkan yaradır və onun metakoqnitiv bacarıqlarını artırır. Bu da şagirdlərdə sərbəst öyrənmə bacarığını – öyrənməyi öyrənmək kompetensiyasını inkişaf etdirir. H.Qardner şagirdlərin intellektlərini aşağıdakı kimi təsnif edir:

1. Verbal – linqvistik intellekt - bu sözlərdən həm şifahi, həm də yazılı nitqdə effektiv istifadə etmək bacarığıdır.
2. Məntiqi – riyazi intellekt – riyazi bacarıqlardan effektiv istifadə və düzgün mühakimə qabiliyyətidir.
3. Məkan – vizual intellekt - verilmiş məkanı vizual olaraq dəqiq dərk etmək və qavramaya əsaslanaraq müəyyən dəyişikliklər etməyi bacarmaq qabiliyyətidir.
4. Bədən – kinestik intellekt – fikirlərini və hisslərini ifadə etmək üçün bütün bədən üzvlərindən istifadə etmək, koordinasiya, çeviklik, sürət kimi fiziki bacarıqlarla bağlıdır.
5. Musiqi - ritmli intellekt – musiqi formalarını dərk etmək, fərqləndirmək bacarığı
6. Şəxslərarası intellekt – digər insanların hissləri, niyyətləri, motivasiyaları, əhval – ruhiyyələrini dərk etmək, fərqləndirə bilmək bacarığıdır.

7. Fərddaxili intellekt – fərdin özü haqqında məlumatlı olması, özünün güclü və zəif tərəflərini, temperamentini, arzularını bilməsi, özünü qiymətləndirmə, özünü anlama kimi bacarıqlarıdır.

8. Naturalist intellekt – flora və faunanın çoxsaylı nümunələrini tanımaq və təsnif etmək bacarığıdır (9, s. 101-106).

Həm təhsilin, həm də fəlsəfənin ortaq cəhəti obyektiv gerçəkliyi əks etdirmək, onları analiz – sintez süzgəcindən keçirib, insanın fərdi məhsuluna çevirməkdir. Müasir təhsil fəlsəfəsinin qarşısında duran əsas məqsəd dövrün tələblərinə uyğun bilik, bacarıq, vərdiş, dəyər və keyfiyyətlər meyarında fəaliyyət göstərməyi bacaran şəxsiyyət yetişdirməkdir (10, s. 58-64).

Pedaqoji, psixoloji, fəlsəfi, metodik ədəbiyyatlarda təhlili problemin təhlili göstərir ki, təhsil kompetensiyaları ölkəmizdə əsaslı tədqiq olunmamışdır. Psixoloji və fəlsəfi ədəbiyyatlarda qismən nəzəri əsasda tədqiq olunmuşdur.

**Məqalənin aktuallığı.** İnkişafetdirici təlim mühitində formalaşdırılan kompetensiyaların pedaqoji, psixoloji, fəlsəfi baxımdan əldə olunan nəticələr tarixin tədrisi metodikası elminin nəzəri məsələlərini zənginləşdirəcək və bu baxımdan da məqalədə araşdırılan problem aktualdır.

**Məqalənin elmi yeniliyi.** Kompetensiyaların pedaqoji, fəlsəfi, psixoloji baxımdan tədqiqinə aydınlıq gətirilmiş və bu məsələlərə bir sistem kimi yanaşılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən fikirlər, əldə olunan nəticələr tarixin tədrisi metodikası elminin nəzəri məsələlərini zənginləşdirməklə yanaşı, şagirdlərdə bilik, bacarıq və vərdişlərin inkişaf etdirilməsi prosesində müəllimlər və pedaqoji ixtisaslı kadrlar üçün faydalı ola bilər.

## Ədəbiyyat


1. Musayev D. ”Təhsil kompetensiyalarının formalaşdırılması müasir təlimin əsas şərtidir”. Pedaqoji Universitetin xəbərləri, 2020, №1, s. 165-169.
2. İsmayılov İ. “Təhsildə kompetent yanaşma, müəllim kompetensiyasının əsasıdır”. Pedaqoji Universitetin xəbərləri. Pedaqoji-psixoloji elmlər bölməsi. 2015, №2, s. 317-318.
3. Əliyev E. Müəllimlərin peşəkar kompetensiyalarını artırmaq zərurəti. “Azərbaycan müəllimi”, 2019, №2, s. 4-5.
4. Bayramova L. Kurikulum və pedaqogika. Bakı, 2020, 462 s.
5. Veyisova Z. Fəal\interaktiv təlim: müəllimlər üçün metodik vəsait. Bakı, 2007, 149 s.
6. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya. II cild. Bakı, 2010, 283 s.
7. Əmirov M.M. Ümumtəhsil məktəblərində tarixin fəal\interaktiv təlimi metodikası. Bakı, 2014, 678 s.
8. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya. I cild. Bakı, 2010, 320 s.
9. Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri. Müəllimlər üçün vəsait. Bakı, 2006, 475 s.
10. Хуторской А.В. «Ключевье компетенции как компонент личностно – ориентированной парадигмы образования. «Народное образование, 2003, №1, с. 58 -64.

**А.И. Исмаилова**

## Дидактические, психологические и философские основы формирования компетенций в преподавании истории Азербайджана

## Резюме

В статье анализируются дидактические, психологические и философские основы формирования компетенций в обучении истории Азербайджана. Эти вопросы были рассмотрены в единой системе.

**A.I. Ismayilova**

## Didactic, psychological and philosophical bases of formation of competencies in teaching history of Azerbaijan

## Summary

The article analyzes the didactic, psychological and philosophical foundations for the formation of competencies in teaching the history of Azerbaijan. These issues were considered in a single system.

**Redaksiyaya daxil olub:** 25.07.2022